## Offşorlara nəzarət gücləndirilir

2008-ci il maliyyə böhranından sonra dünyanın bir sıra dövlətləri vergi yığımlarını yüksətmək üçün offşorlar üzərində nəzarəti daha da sərtləşdirmişlər. 2009-cu ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı offşor zonaların informasiya açıqlığı ilə bağlı meyarlar hazırlamışdır.

«Tax Justice Network» araşdırma təşkilatının bu yay dərc etdiyi hesabatda bildirilir ki, 2010-cu ilin sonuna olan məlumata görə, dünyanın müxtəlif ölkələrinin təminatlı vətəndaşları offşor zonalarda ümumi məbləği 21 trilyondan 32 trilyon dollara qədər olan aktivlərini gizlədirlər ki, bu da ABŞ və Yaponiyanın ÜDM-nin birgə həcmi ilə müqayisə edilir.

Avropa ilə bərabər ABŞ hökuməti də offşorların köməyi ilə vergidənyayınma sxemlərinə qarşı fəal şəkildə mübarizə aparır. 2010-cu ilin mart ayında ABŞ-da beynəlxalq hesabların vergiyə cəlb olunması haqqında qanun qəbul edilmişdir. Qanuna əsasən, beynəlxalq banklara Amerika vətəndaşlarına aid bütün hesablar, eləcə də bu hesablar vasitəsilə həyata keçirilən bütün əməliyyatlar haqqında məlumatları ABŞ-ın Federal vergi orqanına təqdim etmək tövsiyə olunur. Bu tövsiyələrə riayət etməyən banklardan ABŞ rəsmi dairələri ölkə vətəndaşlarının aktivləri ilə aparılan əməliyyatlar üzrə gəlirin 30%-i həcmində vergi ödənilməsini tələb edə bilər. 50 min dollar məbləğdə hesabları olan amerikalılara bu hesablar haqqında vergi orqanına hesabat vermələri tələb olunur. Bu şərtin yerinə yetirilməməsi halında hökumət hesabatda göstərilməyən məbləğdən, yaxud aktivlərlə əməliyyatlar üzrə gəlirdən 40% həcmində verginin ödənilməsini tələb edə bilər.

Sözügedən qanun qəbul edildiyi andan Fransa, Almaniya, Britaniya, İspaniya, İsveçrə və Yaponiya kimi dövlətlər bu sahədə Amerika hökuməti ilə əməkdaşlığa razılıq veriblər. Hazırda həmin ölkələrin ABŞ-la ikitərəfli müqavilələrin hüquqi rəsmiləşdirməsi prosesi sona yaxınlaşmaqdadır...

Noyabrın əvvəlində Honkonqun konsaltinq şirkəti olan Offshore Incorporations Group «Offşor sənayesinin imkanları və problemləri»adlı illik araşdırmasını dərc edib. Araşdırma çərçivəsində şirkət müştəriləri arasında bu sənayenin vəziyyəti və hazırda baş verən proseslərin onların offşor bizneslərinə təsiri barədə sorğu keçirib. Sorğu zamanı aşkar edilib ki, əvvəlki illərdə araşdırma iştirakçıları inkişaf etmiş ölkələr tərəfindən offşorlar üzərində nəzarətin sərtləşdirilməsindən ehtiyat etdikləri halda, indi rəyi soruşulanların çoxu yeni qaydalara uyğunlamağa başladıqlarını bildirmişlər.

***Offşorlar zamana uyğunlaşırlar***

Bütün dünyada offşor zonalarda qeydiyyata alınan yeni müəssisələrin sayı artır. Analitiklər bunu şirkətlərin offşorlar üzərində sərt nəzarətə uyğunlaşmağa başlamaları ilə izah edirlər.

Konsaltinq və hüquq xidmətləri üzrə dünyada ən iri şirkətlərdən biri kimi ixtisaslaşan «Appleby Global»ın noyabr ayının ortalarında dərc etdiyi hesabatda qeyd olunur ki, 2012-ci ilin ilk altı ayı ərzində offşor zonalarda 41.556 yeni şirkət qeydiyyata alınmışdır ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 9% çoxdur. Britaniyanın Virciniya adaları və Kayman adaları daha cəlbedici olmuşdur. Cari ilin ilk yarısında ötən ilin müvafiq dövrünə nisbətən Virciniya adalarında 10%, Kayman adalarında isə 13% çox yeni şirkət qeydiyyata alınmışdır. Virciniya adalarında ilin ilk yarısında 33.065 yeni şirkət qeydiyyata alınmışdır. «Appleby Global»ın təhqiqatçıları qeyd edirlər ki, son zamanlar offşor zona olaraq Seyşel adalarının da populyarlığı artır. 2010-2011-ci illərdə burada qeydiyyata alınmış yeni şirkətlərin sayı 20%-ə yüksəlmişdir. Hesabatda qeyd olunur ki, Mavriki kimi Seyşel adaları da son zamanlar Afrikada işləyən şirkətləri daha çox cəlb edir. Halbuki son vaxtlara qədər burada Asiyadan olan sahibkarlar qeydiyyata alınırdı.

Afrikada çalışan sahibkarlar öz offşor şirkətlərini Seyşel adalarında və Mavrikidə qeydiyyata aldırmağa üstünlük verir, Şərqi Avropada işləyənlər isə Britaniyanın Virciniya və Bermud adalarına meyil edirlər. Təhqiqatçılar hesab edirlər ki, yeni şirkətlərin qeydiyyatı üçün Bermud adalarının populyarlığı artmaqda davam edəcək. Çünki bu zona həmişə beynəlxalq biznes üçün yaxşı tənzimləyici zona mövqeyinə malik olub, yerli hökumət dairələri isə qanunverici bazanın yaradılması üçün mütəmadi olaraq beynəlxalq tənzimləyicilərlə dialoq aparırlar.

Təhqiqatçılar Virciniya adalarında informasiya, texnologiya, təbii resursların əldə edilməsi kimi sferalarda çalışan yeni şirkətlərin qeydiyyatının artım tendensiyasının müşahidə olunduğunu qeyd edirlər.

«Rusiya şirkətləri tərəfindən yeni offşor qeydiyyatını necə xarakterizə edərdiniz?» sualına araşdırma müəllifi Fera Bellands belə cavab vermişdir: «Təəssüf ki, bizim araşdırmanın mənbələri bu və ya digər şirkətin yaranma yerini dəqiq müəyyənləşdirməyə imkan vermir. Lakin əldə edilən təcrübədən çıxış edərək demək olar ki, Şərqi Avropa, yaxud Rusiya şirkətləri tərəfindən offşor qeydiyyatlarının sayı iqtisadi vəziyyətin yaxşılaşmasına uyğun olaraq artır. Dünyanın bu hissəsində peşəkarlar offşor qeydiyyatından istifadə imkanlarını daha yaxşı dərk etdikləri üçün bu say artmaqda davam edəcək».

Hesabat müəllifləri qeyd edirlər ki, yeni offşor şirkətlərinin sayı 2009-2010-cu illə müqayisədə artır və bu say tədricən 2008-ci il göstəricisinə yaxınlaşır.

***Midşorlar***

Araşdırmaçılar son zamanlar biznesin offşor olmayan ərazilərdə - ilk növbədə, Sinqapur və Honkonqda qeydiyyatına marağın artdığını qeyd edirlər. Bunun səbəbi həmin ərazilərdə güzəştli vergitutma rejiminin, hüquqi və maliyyə xidmətləri təklif edən yaxşı təşkil olunmuş sistemin və əlverişli maliyyə iqliminin mövcudluğu ilə izah edilir.

Klassik offşorlarla adi vergi rejimli ərazilər arasında yerləşən belə yurisdiksiyaları mütəxəssislər midşorlar adlandırırlar. Avropada bu tip ərazilərə Kipr, Malta, Lüksemburq və İrlandiya aid edilir. Araşdırmanın nəticələrinə görə, 2020-ci ilə qədər midşorlar klassik offşorları əvəz etməsə də, xərclərini optimallaşdırmağa, hökumət tərəfindən izlənməyə ehtiyat etməməyə can atan müəssisələr üçün cəlbediciliyini əhəmiyyətli dərəcədə artıracaq.

Araşdırma iştirakçılarının böyük əksəriyyəti hazırda aktivlərin müdafiəsi baxımından Britaniyanın Virciniya adalarını ən cəlbedici ərazi hesab edirlər. Lakin 2020-ci ilə qədər Sinqapurun önə çıxacağı proqnozlaşdırılır.

«Kommersant» qəzetinin<br>materialları əsasında hazırladı:<br>Arzu İBRAHİMOVA